**AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI**

AZ1014, Bakı şəhəri, R. Behbudov küç., 32
Tel.: 493 11 22, faks: 493 55 41
E-mail: mail@cbar.az

"10" Mart 2015 il

№ 11-00083-2015

**Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün bankların rəhbərlərinə**

Bildiyiniz kimi, ödəniş kartları ilə aparılan əməliyyatlarda təhlükəsizliyin artırılması məqsədilə "Ödəniş kartlarının emissiyası və istifadəsi Qaydaları"nda 30.06.2014-cü il tarixindən edilmiş dəyişikliklərə əsasən **2015-ci ilin 1 yanvar tarixindən** *real vaxt rejimində internet üzərindən aparılan ödənişlərın avtorizasiyası üzrə emitent (və ya kart təşkilatı) tərəfindən verilmiş şifrə ilə kart istifadəçisini eyniləşdirmək üçün tədbirlər görülməlidir.*

Mərkəzi Bankın, prosessinq mərkəzlərinin və ölkənin aparıcı kommersiya banklarının nümayəndələrinin təmsil olunduğu "Ödəniş kartları ilə fırıldaqçılıq sahəsində risklərin idarə olunması üzrə İşçi Qrupu"nun üzvləri və beynəlxalq kart təşkilatlarının nümayəndələri ilə aparılan müzakirələr nəticəsində müəyyən edilmişdir ki, elektron ticarətdə baş vermiş fırıldaqçılıq hallarının əksər hissəsi kart istifadəçilərinin eyniləşdirilməsi üzrə yaradılmış infrastruktur imkanlarından tam istifadə edilməməsi səbəbindən baş verir. Belə ki, bir sıra yerli emitent bankların real vaxt rejimində kart istifadəçisini eyniləşdirmə xidmətinin olmasına baxmayaraq, kart istifadəçisinin bu xidmətə qoşulmamış ödəniş kartı ilə internet üzərindən aparılan əməliyyatlar zamanı, analoji imkana malik olan xarici ekvayer bankla fırıldaqçılıq əməliyyatları üzrə mübahisəli hallar baş verdikdə emitent bankın, o cümlədən kart istifadəçisinin hüquqlarının qorunması üzrə çətinliklər yaranır.

Qeyd olunan halların yaşanmaması və ümumiyyətlə, ödəniş kartları ilə internet üzərindən aparılan əməliyyatlarda təhlükəsizlik səviyyəsinin yüksəldilməsi məqsədi ilə, Mərkəzi Bank tərəfindən aşağıdakı tədbirlərin nəzərə alınması tövsiyə olunur:

- ✓ *ölkədən kənar elektron ticarət əməliyyatlarında avtorizasiyanın kart istifadəçilərinin ancaq real vaxt rejimində eyniləşdirilməsi ("3D secure" texnologiyası üzərindən) ilə həyata keçirilməsi;*

- ✓ *müştərilərin bu xidmətə qoşulma və istifadə şərtləri, habelə üstünlükləri haqqında mütəmadi olaraq bütün mümkün kommunikasiya vasitələrindən istifadə edilməklə məlumatlandırılması;*
- ✓ *ekvayer bank tərəfindən elektron ticarət üzrə əməkdaşlıq edilən rezident və ya qeyri-rezident təsərrüfat subyektlərinin qeydiyyatının onların fəaliyyət sferasına uyğun olaraq düzgün aparılması, həmçinin bu istiqamətdə ən azı aşağıdakı məqamlar üzrə mütəmadi monitorinqin həyata keçirilməsi:*
  - *əməkdaşlıq üçün ekvayer banka təqdim olunmuş müraciət sorğusu ilə təsərrüfat subyektinin internet səhifəsində yerləşdirilmiş məlumatların uyğunluğunun qiymətləndirilməsi;*
  - *təsərrüfat subyektinin rəsmi fəaliyyəti üzrə real sahibkarlıq fəaliyyətinin uyğunluğunun mütəmadi qiymətləndirilməsi;*
  - *internet üzərindən satılan malların və ya göstərilən xidmətlərin müəyyənləşdirilməsi ilə yanaşı, həmçinin internet səhifəsinin müasir beynəlxalq standartlara uyğun tərtib olunması üzrə (məsələn: "IP", "URL" və "traffic" təhlillərinin aparılması, satış və ya xidmət üzrə şərtlərin və dəstək xidmətinin olması, əlaqə məlumatlarının yerləşdirilməsi və s.) periodik təhlillərin aparılması.*

Xahiş edirik nəzərə alasınız.

**Hörmətlə,**

**Sədrin birinci müavini** **Alim Quliyev**